

# *Vüqar Bayramov:* “Star” layihəsi iqtisadi əlaqələrin genişləndirilməsinə xidmət edəcək

“Star” neft emalı zavodu Azərbaycan, eləcə də Türkiyə üçün vacib layihələrdən biri hesab olunur. Bu zavod investisiya baxımından kifayət qədər böyük sərmayə qoyuluşuna malikdir”. Bu fikri iqtisadi ekspert Vüqar Bayramov qəzetimizə açıqlamasında söylədi.

Vüqar Bayramov bildirdi ki, “Star” layihəsinin reallaşmasının Azərbaycan və Türkiyə üçün həm iqtisadi, həm də strateji baxımdan üstünlükləri var: “Strateji üstünlüklərə diqqət yetirsək, “Star” zavodunun açılışı iki ölkə arasında münasibətlərin uzunmüddətli dövr üçün böyük inkişaf xətti üzrə davam etməsinə imkan yaradacaq. Nəzərə almaq lazımdır ki, xüsusən də ölkələr arasında münasibətlərdə sərmayə qoyuluşları iqtisadi əlaqələrin genişləndirilməsi üçün çox vacibdir. “Star” layihəsi praktiki olaraq bu əlaqələrin genişləndirilməsinə xidmət edəcək. Eyni zamanda, bu gün Türkiyə üçün iqtisadi təhlükəsizlik vacib məqamlardan biridir. Xüsusən də Türkiyə ilə ABŞ arasında münasibətlərin müəyyən qədər pisləşməsindən sonra qardaş ölkənin iqtisadiyyatında müşahidə edilən məsələlər bir daha ondan xəbər verir ki, bu ölkə üçün iqtisadi təhlükəsizlik vacib məqamlardan biridir. Türkiyənin strateji müttəfiqi olan ölkələrdən sərmayələrin cəlb edilməsi qardaş ölkənin iqtisadi təhlükəsizliyinin formalaşmasına bir töhfə kimi qiymətləndirilməlidir. Bu baxımdan təbii ki, Azərbaycanın sərmayəsi, “Star” zavodunun açılışı nəticə etibarilə Türkiyənin iqtisadi təhlükəsizliyinə bir töhfə kimi dəyərləndirilir”.

V.Bayramov qeyd tedi ki, “Star” layihəsi iqtisadi baxımdan Azərbaycan üçün rentabellidir: “İllik gəlirini nəzərə alsaq Azərbaycan yaxın illərdə “Star” zavodunun inşası üçün yönəldilən sərmayəni əldə edib mənfəət qazanacaq. Nəzərə alaq ki, söhbət strateji məhsulların satışından gedir. Xüsusən Türkiyənin həmin məhsullara olan tələbatının təxminən 25 faizə qədərinin sözügedən zavod tərəfindən qarşılanması mühüm əhəmiyyət kəsb edən addımdır. Bu kontekstdən də təbii ki, “Star” neft emalı zavodunun istehsal etdiyi məhsullar strateji əhəmiyyət daşıdığı üçün nəticədə bu layihə daha tez zamanda mənfəət əldə etmək imkanı qazanacaq. Bu da təbii ki, nəticə etibarilə ölkəyə daxil olan investisiyaların həcminin artırılması baxımından çox vacibdir. Digər tərəfdən, “Star” zavodunun inşası ilə bağlı sərmayə qoyuluşları SOCAR-ın, eləcə də Azərbaycanın investisiya portfelinin şaxələndirilməsi baxımından vacibdir. Bu, SOCAR üçün yeni sərmayə imkanlarıdır. Təbii ki, SOCAR-ın xarici investisiya portfelinin diversifikasiya edilməsinə imkan verir”.

Ekspertin sözlərinə görə, “Star” layihəsi, eyni zamanda, SOCAR-a, eləcə də Azərbaycana daxil olan valyutaların həcmini artırmaqla yanaşı, həm də gəlirlərin dayanıqlığını təmin edir: “Ölkəyə gəlirin, valyutanın dayanıqlı şəkildə daxil olmasına imkan yaradır. O baxımdan da təbii ki, bu, həm də iqtisadi cəhətdən əhəmiyyətli layihə hesab olunur. Nəticə etibarilə “Star” neft emalı zavodu hələlik Azərbaycanın Türkiyədəki yeganə investisiya layihəsidir, lakin sonuncu deyil. Nəzərə alaq ki, yalnız sözügedən zavoda əlavə olaraq 700 milyon dollarlıq investisiya da yönəldiləcək. Gələcəkdə Azərbaycan Türkiyə iqtisadiyyatına sərmayə qoyuluşlarını davam etdirmək niyyətindədir. Nəticə etibarilə təbii ki, bu da Azərbaycanın xaricdə sərmayə portfelinin artmasına imkan verəcək. Bu da xarici sərmayələrdən ölkəyə daxil olan valyutanın həcminin artırılması nöqteyi-nəzərdən çox vacibdir. Bu baxımdan qarşılıqlı əməkdaşlıq və strateji müttəfiqlik əsasında reallaşan bu layihə hər iki ölkənin iqtisadi və strateji maraqlarına tam uyğundur”.

**Cavid Əkbərov,**
***“İki sahil”***



İki sahil.- 2018.- 25 oktyabr.- S.9.